## *Proqram: Azərbaycanda Mühüm Ornitoloji Ərazilərin inkişafı*

***Dəstəklənmişdir:*** DEFRA, RSPB, NABU, Birdlife İnternational European Division.

***Məqsəd:*** Azərbaycanda MOƏ-lərin ayrılması üçün iş şəbəkəsinin yaradılması.

Azərbaycan biomüxtəliflik baxımından Avropada mühüm nöqtələrdən biri hesab olunur. Biomüxtəliflik alp yüksək dağlıq ərazilərdən tutmuş arid nadir meşəli ərazilərə, quru düzənliklərə və yarımsəhralara qədər landşaftların yüksək dəyişkənliyi deməkdir. Burada xüsusilə nadir quşlar üçün çoxlu sayda vacib ərazilərə rast gəlmək olar. Bu ərazilər qlobal təhlükədə olan və təhlükəyə yaxın növlərin, məsələn qıvrımlələk qutan, kiçik qarabatdaq, ağgöz dalğıc, məzar qartalı və qara kərkəs kimi nadir növlərin çoxaldığı yerlərdir. Bundan əlavə, bu ərazilər Sibir və Mərkəzi Asiyanın şimal hissəsində çoxalan təhlükədə olan növlərin (məsələn, bəzgək, qıvrımlələk qutan, göydimdik, ağqaş qaz, çökükburun cüllüt) qışlama əraziləri hesab olunur. Bu qeyd olunanlardan əlavə, həmin yerlər dünyanın başqa heç bir yerində rast gəlinməyən Qafqaz endemikləri üçün vacib ərazilər hesab olunurlar. Bunlara Qafqaz tetrası, Qafqaz uları, Qafqaz kölgəlik yarpaqgüdəni aiddir. Azərbaycan Avrasiya- Afrika miqrasiya yolunun mərkəzində yerləşdiyinə görə miqrasiya edən quşlar üçün vacib rol oynayır. Bu, aviafaunanın biomüxtəlifliyinin mühafizəsində mühüm rol oynayır.
Birdlife İnternational-ın tətbiq etdiyi və bütün dünyada yayılan, nadir quşların və onların yayıldığı ərazilərin öyrənilməsi və qorunmasına yönələn metod – Mühüm Ornitoloji Ərazilərin ayrılmasıdır.

***Əsas məsələlər:***

1. Regional və lokal səviyyədə çöl tədqiqatçılarının və MOƏ qoruyucularının (keateykerlər ) ayrılması, onların öyrədilməsi və müvafiq avadanlıqla təchiz etmək;
2. Azərbaycan və onun sərhədlərindən kənarda yeni məlumatların ardıcıl nəşri üçün MOƏ üzrə məlumatlar bazasının yaradılması;
3. Quşlar haqqında biliklərin artırılması, onların statusu, ayrı-ayrı növlərin qorunması və eləcə də ölkədə quşların yayılma əraziləri haqqında nəşrlərin və digər məlumat materiallarının hazırlanması və yayılması.
4. Regional və respublika səviyyəsində MOƏ-lərlə işin koordinasiyası

***Nəticələr:***

1. İlk dəfə Azərbaycanda Azərbaycan dilində rəngli quş təyinedicisi nəşr edilmişdir, bu təyinedici milli park və qoruqların, yasaqlıqların əməkdaşları, yerli fəallar, bioloq tələbələr və digər quş sevərlər arasında paylanır.
2. Mühüm Ornitoloji Ərazilərlə iş üzrə metodik vəsait və MOƏ üzrə qeydiyyat kartları çapdan çıxmış, azərbaycan və rus dillərində Mühafizə olunan Təbii Ərazilərin idarə olunma planı çapdan çıxmışdır.
3. Azərbaycanın MOƏ-ləri haqqında məlumatlar bazası ardıcıd olaraq yenilənir.
4. Ekspedisiyalar zamanı MOƏ qoruyucularının (keateykerlər) yerlərdə iş aparmaq, MOƏ üçün qeydiyyat vərəqələrinin hazırlanması, quşların təyin edilməsi və digər iş metodlarının aparılması istiqamətində öyrədilməsi, məlumatlandırılması həyata keçirilirdi.
5. Aparılan işlər nəticəsində yerlərdə 7 regional və milli koordinatorların rəhbərliyi altında 30-dan artıq keateyker fəaliyyət göstərir.
6. RSPB və Birdlife İnternational- ın beynəlxalq ekspertləri tərəfindən keateykerlər, regional koordinatorlar və AOC-in əməkdaşları üçün treninqlər (iyun, sentyabr, 2004) keçirilmişdir.
7. Koordinator və keateykerlər müvafiq ekspedisiya avadanlığı ilə təchiz edilmişlər (binokllar, fotoapparatlar, quş təyinediciləri, rabitə vasitələri və s.)
8. Cəmiyyət üzvlərinin sayı artıq 175 nəfərə çatmışdır və bu gündə artmaqda davam edir.



Beynəlxalq ekspertin iştirakı ilə seminar

Foto: Nigar Ağayeva

Quşları Müdafiə Kral Cəmiyyəti
(RSPB, Böyük Britaniya)

Hollandiyanın Xarici İşlər Nazirliyinin
PİN/MATRA Fondu vasitəsi ilə
Hollandiyanın Kənd Təsərrüfatı,
Təbiət və Ərzaq Keyfiyyəti Nazirliyi

Böyük Britaniyanın Ətraf Mühit,
Ərzaq və Əyalət üzrə Departamenti

Almaniyanın Təbiəti Mühafizə Cəmiyyəti
(NABU)

BirdLife İsveçrə
tərəfindən dəstək almışdır



AZƏRBAYCAN ORNİTOLOJİ CƏMİYYƏTİ

# AZƏRBAYCANIN QUŞLARI



## TƏBİƏTDƏ MÜŞAHİDƏ APARMAQ ÜÇÜN KİÇİK TƏYİNEDİCİ

BirdLife INTERNATIONAL
Together for birds and people

©Azərbaycan Ornitoloji Cəmiyyəti

- quşların qorunması və öyrənilməsi üçün çalışır
- quşların vacib yaşayış yerlərini qoruyub saxlamaq üçün çalışır
- quşlar haqqında bilikləri yayır
- quşların timsalında əhalinin ekoloji savadını artırır
- beynəlxalq və xarici ekoloji və ornitoloji təşkilatlar ilə əməkdaşlıq edir.

**Baş redaktor:** biologiya elmləri namizədi, Elçin Sultanov
**Tərtib edənlər:** Elçin Sultanov, Mixail Brombaxer, Tahir Kərimov, Nigar Ağayeva, İradə Məmmədova, Aytəkin Cabbarova
**Tərcümə:** Türkan Abbasova, Elçin Sultanov
**Fotoşəkillər:** E. Sultanov, Prof. M. Sakou, T. Tennhart, Y. Etzold, G. Uelş, M. Brombaxer, V. Kovalyov
**Şəkillər:** O. Dudkin, Z. Sroga, N. Kraneis, The Royal Society for the Protection of Birds (RSPB), United Kingdom and BirdLife Switzerland
**Dizayn:** N. Kraneis

Bu kitabı Azərbaycan Ornitoloji Cəmiyyətində sifariş etmək olar.

**BirdLife International**
- BirdLife International 100-dən çox ictimai təşkilatın birliyi kimi quşları və onların yaşayış sahələrini qorumaqla biomüxtəlifliyin mühafizəsi ilə məşğul olan bir təşkilatdır
- 100-dən çox ölkədə fəaliyyət göstərir
- 1 milyondan çox üzvü və yardımçısı vardır
- 1 milyondan çox hektar ərazinin sahibidir, ya da tərəfdaşları ilə birgə təbiəti mühafizə məqsədi ilə idarə edir
- 4 mindən çox işçisi var (tərəfdaş təşkilatlarla birgə)

**BirdLife təşkilatının əsas məqsədləri:**
- Quş növlərinin nəslinin kəsilməsinin qarşısını almaq və nadir növlərin vəziyyətini yaxşılaşdırmaq
- Quşların yaşayış yerlərini qorumaq və yaxşılaşdırmaq
- Quşları və onların yaşayış yerlərini qorumaqla biomüxtəlifliyi mühafizə etmək
- Quşların qorunmasını insanların gündəlik fəaliyyətinə daxil etmək

**A-39.** AZƏRBAYCANIN QUŞLARI
"Avropa" nəşriyyatı və "Tektronix-S" MMC Bakı – 2005,
72 səh., 2000 nüsxə

A $\frac{4702060106-04}{8032-2005}$

## MÜNDƏRİCAT

Giriş ........ 4

Növlərin təsviri

Su-bataqlıq quşları ........ 6
Yüksək dağ qurşağı quşları ........ 24
Meşə quşları ........ 30
Yarımsəhra, açıqlıq sahələrinin quşları ........ 36
Yaşayış məntəqələrinin quşları ........ 44

Mühüm Ornitoloji Ərazilər

MOƏ nədir ........ 48
MOƏ proqramını kim inkişaf etdirir ........ 49
Avropada MOƏ proqramı ........ 50
Azərbaycanda MOƏ-lər ........ 51
Qlobal Təhlükədə Olan Quş Növləri ........ 54

Azərbaycan Ornitoloji Cəmiyyəti

AOC nədir və o nə edir ........ 68
Azərbaycanda MOƏ proqramı ........ 69

